# Ölkəmiz dünyada idman ölkəsi kimi tanınır

**Azərbaycan inkişafda olan bir dövlət kimi idman sahəsində də böyük nailiyyətlərə imza atır. Ölkəmiz artıq dünyada idman ölkəsi kimi tanınır. Gənclik və idman bir-birini tamamlayan məfhumlardır. Ölkəmizdə bu gün idmanda əldə edilən nailiyyətlər ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.**



1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yarandı. Belə ki, 1994-cü ildə ölkənin idman və gənclər həyatını özündə cəmləşdirən Respublika Gənclər və İdman Nazirliyi, 1995-ci ildə isə Azərbaycanda İdman Fondu yaradıldı. 14 avqust 1996-cı ildə idman ictimaiyyəti ilə görüşündə ümummilli lider Heydər Əliyev demişdir: "Şəxsən mən söz vermişəm və indi də təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz". Bu fikirlər Azərbaycan idmanının inkişafı istiqamətində əsaslı dönüş yaratdı.

1997-ci il iyul ayının 31-də Azərbaycanın idman həyatında yeni bir mərhələnin əsası qoyuldu. Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə cənab İlham Əliyev seçildi. İdman federasiyaları və cəmiyyətləri MOK-un bayrağı altında vahid bir ailə kimi birləşdilər. 2004-cü ildə ölkədə bədən tərbiyəsi və idmanın gələcək illərdə sistemli inkişafı, bu sahənin hüquqi, iqtisadi, sosial bazasının möhkəmləndirilməsini təmin edəcək "Azərbaycan Respublikasında 2004-2008-ci illər ərzində bədən tərbiyəsi və idmanın inkişafının Dövlət Proqramı" təsdiqlənmişdir. Daha sonra idmanın kütləviləşməsi və inkişafı yolunda görülən tədbirlərin davamı kimi dövlət başçısı İlham Əliyev 2005-ci ilin 4 martında sərəncam və fərman imzalamışdır. Sərəncam "Bədən tərbiyəsi və idman günü"nün müəyyənləşdirilməsi, fərman isə ölkə idmanının inkişafında yüksək xidmət göstərmiş şəxslərə veriləcək "Əməkdar bədən tərbiyəsi və idman xadimi" adının təsis edilməsi ilə bağlıdır.

Olimpiya hərəkatında fəal iştirakımız Azərbaycanda beynəlxalq yarışların, o cümlədən Avropa, dünya çempionatlarının, dünya kuboku yarışlarının və olimpiya lisenziya turnirlərinin keçirilməsi, idmançılarımızın xarici ölkələrdəki yarışlarda müvəffəqiyyətlə çıxış etmələri, güclü idman infrastrukturunun yaradılması, idmana dövlət qayğısının artması və digər amillər Azərbaycanın idman ölkəsi kimi imicini formalaşdırdı.

Hər il ölkə Prezidenti tərəfindən idman ictimaiyyətini sevindirən sərəncamlar imzalanır, qələbələrinin cavabı olaraq idmançılar və idman mütəxəssisləri fəxri ad və digər dövlət mükafatları ilə təltif olunur.

Bu gün ölkəmizdə fəaliyyət göstərən bütün federasiya və idman qurumları ölkə başçısının diqqət və qayğısını hiss edir. Məhz bu qayğı onların daha sürətli inkişafına təkan verir ki, bu da mötəbər idman qurumlarının nüfuzlu yarışlarının Azərbaycanda təşkili üçün etibarlı zəmin yaradır.

Bu yarışlar sırasında 1997-ci ildə AİBA-nın prezidenti (Beynəlxalq Boks Federasiyası) Ə.Çoudrinin kuboku uğrunda təşkil edimiş, növbəti illərdə isə ənənəvi xarakter almış beynəlxalq turnir, 1998-ci ildə sambo üzrə kişilər arasında Avropa çempionatı, 1999-cu ildə boks üzrə yeniyetmələr arasında Avropa birinciliyi, 2001-ci ildə Bakıda yeniyetmələr arasında boks üzrə birinci dünya çempionatı keçirildi. Voleybol üzrə qadınların dünya çempionatının seçmə oyunları, həmin ildə Bodibildinq üzrə Avropa çempionatı və 2010-cu ildə dünya çempionatı, 2003-cü ildə şahmat üzrə Naxçıvanda keçirilmiş 20 yaşadək oğlan və qızlar arasında dünya birinciliyi və s. göstərmək olar.

Olimpiya oyunlarında ölkəmizi təmsil edən və uğurlu nəticələr qazanaraq Vətənə medallarla qayıdan idmançılarımızın sayı da durmadan artır. Buna əyani sübut kimi göstərə bilərik ki, milli komandamız 1996-cı ildə bir (Atlanta ABŞ), 2000-ci ildə üç (Sidney, Avstraliya), 2004-cü ildə beş (Afina, Yunanıstan), 2008-ci ildə yeddi (Pekin, Çin), 2012-ci ildə isə 10 medal (London, Böyük Britaniya) qazanmışdır.

2013-cü ildə olimpiya və qeyri-olimpiya idman növləri üzrə rəsmi beynəlxalq yarışlarda – dünya və Avropa çempionat və birinciliklərində, kubok yarışlarında 280 qızıl, 233 gümüş və 269 bürünc, ümumilikdə isə 782 medal əldə etmişlər.

Məlumdur ki, 2015-ci ilin iyununda ilk Avropa Oyunları Bakıda keçiriləcəkdir. "Bakı 2015" ilk Avropa Oyunlarında 20 idman növü üzrə yarışlar keçiriləcəkdir ki, onlardan da 16-sı olimpiya idman növüdür. 11 idman növü üzrə yarışlarda qalib gələn idmançılara Rio-de-Janeyro şəhərində keçiriləcək növbəti oyunlarda iştirak lisenziyaları veriləcəkdir. İdmançıların ümumi sayı 6 mindən çox olacaqdır ki, bu rəqəm son qış olimpiya oyunları iştirakçılarının sayından 2 dəfədən çoxdur.

Vurğulamaq lazımdır ki, Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının Bakıda yaxınlarda V iclası keçirilmişdir. Azərbaycanın birinci xanımı, "Bakı-2015" ilk Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva iclasda iştirak etmişdir. Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyası "Bakı-2015" birinci Avropa Oyunlarına hazırlığı yüksək qiymətləndirdi. Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Nikki Avropa Olimpiya Komitəsinin iclasının əhəmiyyətini vurğuladı. O, Avropa Oyunlarının yüksək səviyyədə təşkil edilməsi məqsədilə burada güclü və peşəkarlardan ibarət komandanın çalışdığını diqqətə çatdırdı.

İclasda "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış edərək bildirdi ki, Avropa Oyunları yeni idman ənənəsi üçün güclü təməl yaradacaq. Avropa Oyunlarını 600-dən artıq beynəlxalq və yerli media nümayəndəsi işıqlandıracaq.

İyunun 10-da beynəlxalq mətbuat nümayəndələri üçün tədbir təşkil ediləcəkdir. Bu tədbiri 100-dən artıq ölkəyə yaymaq üçün 43 şirkətə yayım hüququ verilib və beləliklə də oyunları Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika və Avstraliya da izləyə biləcəkdir. Fərəhli haldır ki, hazırda Bakı Avropa Oyunları Əməliyyat Komitəsində 950 gənc çalışır. Bu, oyunların ən dəyərli hazırlığından biridir və gənclərin gələcək həyatı üçün böyük təcrübə imkanıdır.

Belə nəticəyə gəlmək olar ki, Azərbaycanın ev sahibliyi edəcəyi bütün yarışlar yüksək səviyyədə keçiriləcək, ölkəmizi təmsil edən idmançılar uğurlu nəticələrə imza atacaq, bu oyunlar dünya və Avropa idman tarixinə böyük bir töhfə olacaqdır.

I Avropa Oyunları dünya olimpiya və idman həyatına yeni bir çağırışdır.

**Ağacan ABİYEV,**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru, professor, millət vəkili.**